Respublika.- 2024.- 15 oktyabr (№ 226).- S. 5

# FƏXARƏT, QÜRUR TARİXİMİZ

**Həyatda elə günlər olur ki, bir xalqın, bir ölkənin taleyində müstəsna rol oynayır. Çox mühüm ictimai-siyasi hadisələrin, yeni tarixi mərhələlərin başlanğıcı kimi yaddaşlara həkk olunur. 15 oktyabr çağdaş tariximizə qızıl hərflərlə yazılan belə günlərdən biridir.**

**2003-cü il oktyabr ayının 15-də** keçirilən prezident seçkilərini həmişə fəxrlə, sevinc hissləri ilə xatırlayıram. Müdrik rəhbər, ümummilli lider Heydər Əliyevin seçkilər ərəfəsində Azərbaycan xalqına müraciətində deyilirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıracaqdır".

Xalq oktyabrın 15-də dahi rəhbərin müraciətinə, uğurlu siyasi kursuna, onun layiqli davamçısı cənab İlham Əliyevə yekdilliklə səs verdi və yüksək səs çoxluğu ilə ilk dəfə prezident seçildi.

2003-cü ildən müstəqil Azərbaycan dinamik inkişaf, yüksəliş yoluna qədəm qoydu. Beş il ərzində iqtisadiyyat 2,6 dəfə, sənaye potensialı 2,5 dəfə artdı. Yoxsulluğun səviyyəsi 3-4 dəfə aşağı düşdü, büdcə xərcləri 10 dəfədən çox artdı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini dövlət siyasətinin başlıca prioritetlərindən hesab edirdi. Təsadüfi deyil ki, prezident seçkilərindən dərhal sonra dövlətimizin başçısının imzaladığı ilk sərəncamlardan biri respublikamızın regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında olmuşdur.

Möhtərəm Prezidentimizin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)" qarşıya çox mühüm vəzifələr qoyuldu. Proqramın həyata keçirilməsi regionlara yeni həyat, yeni nəfəs gətirdi. Rayon mərkəzlərinin, qəsəbə və kəndlərin siması tanınmaz dərəcədə dəyişdi.

**2008-ci il oktyabrın 15-də** keçirilən növbəti prezident seçkiləri şəffaflığı, demokratikliyi ilə dünyanın diqqətini cəlb etdi. Prezidentliyə namizədlərin sayının çoxluğuna baxmayaraq, cənab İlham Əliyev 88,73 faiz səs çoxluğu ilə yenidən ölkə rəhbəri seçildi. Seçkinin nəticələri göstərdi ki, cənab İlham Əliyevə xalq möhkəm inanır, ölkənin taleyini, gələcəyini yalnız ona etibar edir.

Cənab Prezident seçkilərdə xalqın iradəsinin qalib gəldiyini önə çəkərək demişdir: "Mənə yenidən böyük etimad göstərmiş, məni Prezident vəzifəsinə seçmiş bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını yenidən əmin edirəm ki, mən bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı üçün öz səylərimi əsirgəməyəcəyəm".

Ölkəmizin ucqar dağlıq ərazisində yerləşən Lerik rayonunun seçiciləri hər iki seçkidə Heydər Əliyev siyasətinə, ulu öndərin siyasi kursuna sədaqətlərini əyani nümayiş etdirdilər.

Həmişə olduğu kimi, cənab Prezident 2008-ci il seçkilərindən sonra da qətiyyətlə bildirirdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaq. Dağlıq Qarabağa heç vaxt - nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcək.

**15 oktyabr 2018-cil il.** Leriklilər bu tarixi günü də heç vaxt unutmurlar. Cənab Prezidentin Lerikə növbəti səfəri yaddaşlarda silinməz izlər qoyub. Cənab Prezident bundan əvvəl də 3 dəfə Lerikdə olmuşdur. Rəhbərin hər gəlişi dağlar diyarında əsl bayrama çevrilir, yeni mühüm strateji obyektlərin təməlqoyma və açılış mərasimləri, sakinlərlə səmimi, unudulmaz görüşlərlə yaddaşlara həkk olunub. 2005-ci ildə 56 kilometrlik Lənkəran-Lerik yolunun əsaslı şəkildə yenidən qurulmasına, 2006-cı ildə rayona ilk dəfə mavi qazın çəkilişinə həsr olunmuş mərasimlərdə möhtərəm Prezidentimiz şəxsən iştirak edib. 2010-cu ildə də rəhbərin gəlişi yeni sosial obyektlərin açılışları, rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşlərlə yadda qalıb.

Dövlətimizin başçısı 2018-ci il oktyabr ayının 15-də Lerikə dördüncü səfəri zamanı 27 kilometrlik Piran-Hamarat-Vıjaker avtomobil yolunun, 16,5 meqavatlıq modul tipli elektrik stansiyasının, Lerik şəhərinə çəkilən yeni içməli su xəttinin və quraşdırılan kanalizasiya sisteminin, 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimlərində iştirak edib.

Dövlət proqramlarının uğurla icra edilməsi nəticəsində Lerik kimi çətin relyefə malik ucqar dağ rayonunun iqtisadi və sosial mənzərəsi əsaslı şəkildə dəyişib, əhalinin məşğulluq səviyyəsi, həyat tərzi, maddi rifahı yüksəlib.



**Keçən il oktyabr ayının 15-i** müstəqil Azərbaycanın həyatında daha bir mühüm tarixi hadisə ilə yadda qaldı. O gün Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi şəhərinin mərkəzində üçrəngli Dövlət Bayrağımızı ucaltdı. Bu münasibətlə xalqımızı ürəkdən təbrik edərək dedi: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

...Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Bu illər ərzində iqtisadiyyatımız artdı, ölkəmiz, ordumuz gücləndi. Elə bir gənc nəsil yetişdi ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi. 44 günlük Vətən müharibəsində Ermənistan ordusu darmadağın edildi, düşmən kapitulyasiya aktına imza atmağa məcbur oldu. Keçən ilin sentyabr ayında cəmi 23 saat davam edən antiterror tədbirləri zamanı düşmən ağ bayraq qaldıraraq təslim oldu. Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərdi. Döyüş meydanında bütün dünyaya sübut etdi ki, istənilən vəzifəni şərəflə yerinə yetirə bilər. Biz şanlı, müzəffər ordumuzla, Silahlı Qüvvələrimizlə haqlı olaraq fəxr edir, qürur duyuruq.

Ölkəmiz çox böyük, mötəbər beynəlxalq tədbirin astanasındadır. Azərbaycanın COP29-a ev sahibliyi etməsi Ermənistanı və onun havadarlarını məyus edib. Düşmən yenidən məkrli siyasətini həyata keçirmək üçün fürsət axtarır. Ermənistan və ona "züy tutan" dövlətlər 44 günlük Vətən müharibəsini və 23 saatlıq antiterror əməliyyatını gərək unutmasınlar! Əgər Ermənistanda yenidən hansısa revanş qüvvə baş qaldırarsa, "dəmir yumruq" hazırdır.

**Hidayət BƏŞİROV,**
**Lerik Rayon Veteranlar Şurasının sədri**